4 dekabr / 2021

## Əjdər Ol "Türk Dünyasına Üstün Xidmət" mükafatına layiq görüldü



Tanınmış Azərbaycan şairi və nasiri Əjdər Ol Türk Ədəbiyyatı Vəqfinin Əjdər Ol "2021-ci il Türk Dünyasına Üstün Xidmət" mükafatı ilə təltif edilib. Vəqfin başqanı Sərhat Kabaklı ədibin fəaliyyətinin önəmini və mükafata layiq görülməsinin səbəblərini bu şəkildə ümumiləşdirib: "Azərbaycan və Türk Dünyası ədəbiyyatına hekayə, roman, dram, şeir, araşdırma, portret, esse, bioqrafiya janrlarında onlarla əsər bəxş edən, əsərləri Azərbaycandan başqa, 10 fərqli ölkədə yayımlanan, Azərbaycan ədəbiyyatının Türk dünyasında və digər xarici ölkələrdə təbliğ edilməsində önəmli rollar oynayan, "Azərbaycan lətifələri" və "Müdriklik anları" kimi əsərləriylə Azərbaycanın, başda Heydər Əliyev olmaqla, siyasi, ədəbi və musiqiçi dühalarını Türk dünyasında və Avropada tanıdan yazar, şair Əjdər Ol bu mükafata layiq görülür".